Kredo.- 2023.- 10 mart.- S.7.

# Heydər Əliyev və Azərbaycanda dil siyasəti

*Xalqımızın ana dili olan Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək və sonradan bu bünövrə üzərində Azərbaycan yazılı dil səviyyəsinə qalxanadək uzun bir təşəkkül tarixi keçmişdir.*

***HEYDƏR ƏLİYEV***

Müstəqil dövlətin dil siyasəti onun varlığı, inkişafı və gələcəyidir. Azərbaycanda xüsusi diqqət yetirilən dil siyasəti Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin respublikaya rəhbərlik etdiyi dövrlərdə dilimizə qayğı və diqqət onun milli siyasətinin başlıca qayəsi olmuşdur.- Heydər Əliyev Azərbaycan dilinin tarixi inkişafına xüsusi diqqət yetirmiş, dilimizin tarixinin öyrənilməsini və hər bir azərbaycanlının öz dilini, xalqının tarixini bilməsini vətəndaşlıq borcu hesab etmişdir.

XX əsrdə öz çiçəklənmə dövrünü keçənAzərbaycan ədəbi dili haqqında ümummilli lider demişdir: "Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və buna mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb"("Azərbaycan" qəzeti, 7 noyabr 1995-ci il).

Ulu Öndərin"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001-ci il), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" (9 avqust 2001-ci il) tarixi fərmanları, "Dövlət dili haqqında" (30 sentyabr 2002-ci il)qanunu, "Azərbaycan Respublikasında dövlət dili haqqında" (2 yanvar 2003-cü il) fərmanımüstəqil Azərbaycan Respublikasında dil quruculuğu sahəsində istiqamətverici mahiyyəti ilə yaddaşlara həkk olunmuşdur.

Heydər Əliyevin Azərbaycan dili və ümumiyyətlə, dil siyasəti özünəməxsus prinsiplər əsasında qurulmuşdur. Bu siyasət, hər şeydən əvvəl, demokratiklik prinsipinə əsaslanırdı. 1992-ci il 22 dekabrda "Azərbaycan Respublikasının dövlət dili" haqqında qəbul edilmiş Qanunun birinci maddəsində dövlət dilimiz türk dili kimi göstərilmişdi. Alimlərin, yazıçıların, dilçilərin və tarixçilərin iştirakı ilə AMEA-da, elmi müəssisələrdə və kollektivlərdə, Yazıçılar Birliyində aparılan demokratik müzakirələrin nəticəsindəi 1995-ci il 12 noyabrda qəbul edilmiş Konstitusiyada dövlət dili kimi Azərbaycan dilinin işlədilməsi Heydər Əliyevin demokratik dil siyasəti idi.

Dəqiqlik və uzaqgörənlik Heydər Əliyevin dil siyasətinin əsaslandığı ikinci prinsipdir. 1969-cu ilədək yüksək kürsülərdən rəhbər işçilərin nitqlərində ana dilimiz eşidilmirdi. çşcMəhz uzaqgörənlik və müdrikliyin çatışmaması bu sahədə səhvlərə yol açdı. 1995-ci il 2 noyabrda olan iclasda ümummilli lider demişdir: "İndi biz tarixi mərhələdəyik. Biz gərək elə bir qərar qəbul eləyək ki, o həm bu günümüzü, həm də keçmişimizi əks etdirsin, həm də gələcəyimiz üçün və bu gün dövlətçiliyimiz üçün yararlı olsun".

Dillə bağlı bütün məsələlərdə obyektivlik də Heydər Əliyevin dil siyasətinin əsaslandığı prinsiplərdən biridir. 1995-ci ildə yeni Konstitusiya layihəsi hazırlanarkən Heydər Əliyev dil siyasətini həyata keçirməyin obyektiv yollarını belə müəyyənləşdirir: "Bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm. Bu çox taleyüklü, tarixi, ciddi bir məsələdir. Təmkinlə, sakit, sərbəst, gələcəyi düşünərək, keçmişə düzgün qiymət verərək bu məsələni müzakirə etmək lazımdır".

Heydər Əliyevin milli dil siyasətində dilin inkişafına qayğı və hörmət, bu dili təbliğ etmək əsas yer tuturdu: "Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o tariximizi bilməyəcək; onları oxuya bilməsə, mədəniyyətimizi bilməyəcək; millimədəni ənənələrimizi bilməyəcək".

Demokratikliyi, uzaqgörənliyi və obyektivliyi ilə Heydər Əliyevin digər dillərə münasibətdə də yürütdüyü dil siyasəti çox fərqli idi. Xarici dillərin öyrənilməsində ümummilli liderin mövqeyi belə idi: "Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini- rus dilini də, ingilis dilini də, fransız dilini də, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu, lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dili bilməsini tələb edir".

Heydər Əliyev eyniköklü dillərin bir-biri üçün daha anlaşıqlı olması və daha da inkişaf etməsində yazıçıların xidmətini vacib saymışdı, mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə daha çox diqqət ayırmağı tövsiyə etmişdi. Müxtəlif azsaylı xalqların vətəni olan Azərbaycanda bir çox etnik köklü millətlərə mənsub olan insanların hamısının Azərbaycan dilini öz ana dili kimi qəbul etdiklərini və Azərbaycan dilinin bizi keçmişdə birləşdirdiyi kimi, gələcəkdə də birləşdirəcəyini vurğulamışdı.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan RespublikasıPrezidentinin 29 sentyabr 2022-ci il Sərəncamında qeyd edildiyi kimi- "Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".



Naibə Məmmədli